

**Fəzail İsmayıl Böyükkişi**

# Ədəbi, ədəbi sənət incisi...

## *Bu il 95 yaşı tamam olmuş Vidadi Babanlının "Sabaha ismarıc" romanı haqqında təəssüratlarım*

**(əvvəli ötən sayımızda)**

***Müəllif tələbə qızların bu məhəbbətini belə qələmə alır: Hər birinin könlündən onun ömür-gün yoldaşı olmaq, bir yastığa baş qoymaq arzusu keçirdi. Heç biri də istəyini bəyan etməyi bacarmırdı. Qızlıq qüruru, ar-ismət qabaqlarını kəsirdi. Bunu Əziz Əzimli duysa da onların sehrinə düşməkdən çəkinirdi. Yaşı otuz beşi keçsə də qarşısına qoyduğu ali məqsədlərinə çatmağa, cəmiyyətdə lazımı mövqe qazanmağa xalqına gərəkli insan olmağa can atırdı. Lakin Əzim Əzimli gözləmədiyi halda elə bir məhəbbətlə üzləşdi ki, onun bu inad tərsliyi yenildi. Çiçək adlı şən, şux, gözəgəlimli bir tələbəyə bir könüldən min könülə ona vuruldu. Çiçək Əziz müəllimə vurulandan sonra fa\ırlaşdı, qaradinməz, qaraqabağ oldu. Onun belə qəvil dəyişməsi onu tanıyanların heyrətinə səbəb oldu. Vidadi Babanlı Çiçəyin belə dəyişməsini, ata, anasının da bərk narahat olmalarını belə qələmə alır: 'Çiçək evdə də qaşqabaqlı, qəm-qüssəli hərlənirdi.***

Dilini heç vaxt dinc qoymayan, hey danışıb-gülən, şaqqanaqları, qəhqəhələri otaqları titrədən, qızın lap bezikdirici dərəcədə sözü sözə calayan bu qız indi dindirəndə hıqqana-hıqqana dinir; təkidli sorğuları candərdi cavablandırırdı. Hər gün axşam tərəfi institutdan qayıdıb, dəftər-kitabları hara gəldi atır, divanda büzüşüb oturur, yolda yataq otağına keçib çarpayıya üzü üstə döşənib, cınqırını çıxarmırıdı. Yemək-içməyə də həvəssizləmişdi. Çay əvəzinə üç-dörd qurtum su ilə kifayətlənirdi. Anasını əməlli başlı təlaşa salmışdı. İntizar içində soruşanda: "Nə olub sənə? Ağrıyan yerinmi var?" Heysiz-heysiz əlini yellədir, üzünü yana çevirirdi. Anası əl çəkməyəndə, təkidlə cavab istətəndə dilucu: "Yorğunam, başım ağrıyır – deyirdi. Çiçək getdikcə arığladı, yeməz-içməz oldu. Ananın təlaşı qorxu ilə əvəzləndi. Qızının ciddi xəstələndiyini düşündü. Çiçəklə bağlı narahatlığını ərinə dedi. Çiçəyin ata qəlbində daha çox yeri olduğuna görə atası daha çox vahimələndi. Ata-ana yüz ölçüb bir biçəndən sonra Çiçəyin ağır xəstələnməsi fikrinə gəldilər. Onu mərkəz xəstəxanaya aparıb lazımı müayinələrdən keçirmək istədilər. Lakin Çiçək onların sözünə məhəl qoymadı, onların təklifinə hönkürtü ilə rədd etdi, onlara: "Heç yana getməyəcəyəm. Əl çəkin məndən! Ölümümü istəmirsinizsən, rahat qoyun məni – dedi. Bu söhbətdən sonra da ana Çiçəkdən əl çəkmədi, ona mənə yazığın qəlmir, atana yazığın gəlsin, onsuz ağır işi atanın canını üzüb, indi də sənin dərdin onun canını lap üzür dedi. A qızım elə dərd var ki, əvvəllə ağrı acısız olur. Hazırlaş aparaq səni həkimə. Azar bezarını öyrənək vaxtında bi rçarə qılaq. Çiçək yenə də: Dedim ki, əl çək məndən. Həkimlik işim yoxdur. Heç yerim ağrımır, - cavabını verdi. Birdən ananın ağlına belə bir fikir gəldi. Bəlkə qızım eşqə düşüb. Ona görə kövrək qımışıqla Çiçəyə dedi: Üzünü bəri çevir, gözümün içinə düz bax, bəlkə... eşqə düşübsən, oğlan-zad sevirsən? Çiçəyin bədənində qəribə titrəyiş sesezildi, qeyri-adi inilti eşidildi. Ana bir az təsəlli tapdı. Həyacanlar nisbətən sənqidi. Gəncliyində onun özünün da buna bənzər hallar keçirdiyi yadına düşdü. İndi ki ərinin sevgi toruna tuş gələndə zərif eşq duyğuları dincliyini əlindən alıb, yuxusunu ərşə çəkəndə eyni əhvalları yaşamışdı. Zənninə İlahi! Qızımın dilini axır ki, açdın.

***Xeyli ara verib sorğusuna həlimliklə davam etdi.***

***– Lap, yaxşı, qızın, lap yaxşı! Kor nə istər – iki göz. Biri əyri, biri düz. Harda tapışıbsınız?***

***– İnstitutda.***

***– O da tələbədir?***

***– Yox! - Çiçək qürrələndi – müəllimdi.***

***– Haranın müəllimidi.***

***– Bizim!***

***– Cavandı?***

***– Hə.***

***– Subaydı?***

***– Hə.***

***– Dəqiq bilirsən?***

***– Hə.***

***Ananın səsinin ahəngi ciddiləşdi:***

***- O da səni sevirmi?***

Ana bu dəfə xeyli sərt dilləndi:

- Sən təmkinli deyilsən. Ağıllı-kamallı qız hərəkətləri eləmirsən. Qəm-qüssəyə qapılıb yemirsən, içmirsən, gününü ah-uğla keçirirsən, arıqlayıb xorttana dönmüsən. Sevdiyin adamın xoşuna gəlmək, məhəbbətini qazanmaq əvəzinə onu özündən uzaqlaşdırırsan... Qəm odunda ürəyinin yağını əridib, sir-sifətini saraldıb soldurursan, illər xəstəsinə oxşayırsan. Belə qızı hansı oğlan sevər?! Hansı axmaq ona



nin düzgünlüyünü dəqiqləşdirmək üçün dilinə bal lələyib qılığını bir az da şirinləşdirdi. – Hə, ağrın alım, ağrın-acın ürəyimə gəlsin, dur rahat otur, ana-bala qapı eləyək. Deyəsən kələyin ucunu tapmışam. Səni qəm-qüssəyə salan, ürəyini üzən məhəbbətdi. Gizlətmə məndən, boynuna al. De görüm, kimdi o? Nə karədi? Çiçək dinmədi. Dərindən köksünü ötürdü. Ana qızını qıcıqlandırmaq məqsədiylə qaibanə oğlanı qəzdən söylədi, yamanladı. – Bir bileydim qızımı bu hala salan hansı köpək oğludu, yaxasından yapışıb abrını verərdim.

Fənd bəhrəsini verdi. Çiçək həmin anda dik atıldı. Gözləri yaşara-yaşara anasına bozardı:

- Yox, söymə onu, haqqın yoxdu... O, çox yaxşı adamdı.

Ana üzünü göyə tutub, dua oxuyurmuş kimi pıçıldadı:

- Min şükür, sənin böyüklüyü-

***Çiçək fağır-fağır başını köksünə əydi. Küskünlüklə:***

***- Bilmirəm, - dedi.***

Göz çuğurlarında qəhər yaşları işıldadı. İki-üç dəfə astadan hıçqırdı. Ana zarafata salıb qülümsəyə-qülümsəyə qızına ürəkdirək verdi: - Qorxma, evdə un çuvalına tay olub qalmayacaqsan. Gözəl-göyçək, ağıllı-ismətli qızsan. Müştərin göydən yağacaq. Ağrın onun ürəyinə! Minnəti olsun ki, ...

Çiçək cinləndi:

– Qarğış eləmə, ana! Mən razı olmaram onun haqqında bir pis kəlmə işlədilsin, yamanlığına danışılsın.

Ana incik-incik söhbətinə davam etdi: - İndi ki onun haqqında pis söz eşidilməsini istəmirsənsə, çalış, o da sənin haqqında pis fikrə düşməsin. Yaxşı qız kimi tanısın.

Çiçək mizildandı:

- Mən neyləyim ki?




yaxın durar. Ağlını başına yığ, bir yaxşı-yaxşı düşün. Daha uşaq deyilsən, hər şeyi dərindən anlamaq vaxtındı.

Sakitləşmiş Çiçək bütün gövdəsi ilə qanrılıb gözlərini geniş-geniş açıb anasına mat-mat baxdı. Kirpiklərini qırpmadı. Bu baxışlardakı nəna ananı qane elədi. Qızı yumşalmışdı, məsləhətə yatırdı. Sözlərinin ciddiyyətini artırdı:

- Hamı keçib o yolu. Di dur get hamam otağıan əl-üzünü tərtəmiz yu, saçlarını, üst-başını səliqəyə sal. Ordan da keç mətbəxə. Sənin çox xoşladığın yarpaq dolması bişirmişəm. Ləzzətlidi. Bilirəm iştahını açacaq. Haçandı dilinə dadlı bir şey dəymir. Bir az cəld ol!.

Xülasə ana qızının sirli xəstəliyinin eşq olduğunu biləndən sonra çox sevinir. Axşam əri işdən gələndə onu belə muştuluqlayır:

- Gözün aydın, a kişi qızımız sap-sağlamdı, eşqə düşüb.

Kişi yorğun-yorğun dilləndi.

– Eşq?! Nə eşq?!

Ana yırğalandı, ərini zarafatla qınadı.

– Bıy, ay kişi, bilmirsən eşq nədi?! Yadından niyə çıxıb? Cavanlıqda bizim də könlümüzü coşdurub, aşıb-daşdırıb eşqi.

Xoş təbəssüm kişinin tutqun sifətini işıqlandırdı:

- Həə? Kimdi oğlan? Nəçidi, nə karədi? Əsli-nəcabəti varmı? Oxu atıb yayın gizlətmə. Məsələdən məni ətraflı agah elə.

Ana toxtaq dilləndi:

- Narahat olma, agah-eləyəsəyəm. Əsası odur ki, qəm-qayısıdan nigarançılıqdan qurtarmışıq. İnşaallah hər şey öz cəmini tapacaq.

Bir qədər rahatlanmış ata razılıqla başını tərpətdi.

– Anladım. Qoy sən deyən olsun.

Bununla görürük ki, müəllif ülvi və çılğın məhəbbətlə öz müəllimini sevən Çiçəyin eşqini bütün təfsilatı ilə hər bir oxucunun diqqətinə şatdırılır. Anasıyla son söhbətindən sonra Çiçək öz səhvini tez anlayır. Çox çəkmir ki, o əvvəlki şux, şən qıza çevrilir, yenə də rəfiqələriylə, kurs yoldaşlarıyla xoş rəftarlı olur, mehriban davranır. Sevdiyi müəlliminin yaxında da ağır oturubdurur. Qız abır-ismətini qoruyur. Lakin bu hal uzun sürməyir, çılğın hisslər, məhəbbət sarsıntıları ağlını yenə də yerindən oynadır. Amma bu dəfə məcul-müşgül, yazıq hal, boynubükük qalmır. Eşqini açıq-aşkar bildirməyə başlayır. Müxtəlif bəhanələrlə müəlliminə yaxınlaşır, ona yerli-yersiz suallar verir. Əziz Əzimli bunu tələbə mehribanlığı sayır, pis mənaya yozmur, ona sərt üz göstərmir. Onun şirin salamlarından səmimi cavablarını əsirgəmir. Ancaq bir dəfə çox qəribə əhvlata baş verir. Müəllif bu qəribə əhvalatı belə təsvir edir. Əziz Əzimlinin məşqələlərinin biri günün axırına təyin edilmişdi. O, məşqələləri bitirib sualları cavablandırıb, tələbələri evə yola salmışdı, cib dəftərinə nəsə yazırdı. Bir azdan xısın-xısın ağlamaq səsi eşitdi. Heç kəs yox idi. Oturacaqlar bom-boş idi. İşinə davam etdi, Az sonra səs təkrarlandı, güclü hıcqırtı ilə əvəzləndi. Əziz Əzimli yenidən diqətdi otağa yenidən boylandı. Xeyli təşvişləndə. Özündən şübhələndi. Onu qaramı basırdı? Elə bu vaxt hıçqırtı boğuq hönkürtüyə çevrildi. Səsin yeri müəyyənləşdi. Lap yaxından, pəncərə səmtindən eşidilirdi. Əziz Əzimli qərkin hovllə yana çevrildi. Kürəyini pəncərənin surahisına söykəyib büzüşmüş, əlləriylə üzünü örtüb xısın-xısın ağlayan qəzə gördü. Gümanına ayrı bir şey gəlmədi, qızın xəstələndiyini zənn etdi. Yerindən tələsik qalxıb oraya yaxınlaşdı. Həyacanla soruşdu:

***- Nə olub sizə?***

***Çiçək astaca başını buladı. Xüsusi yanğı ilə içini çəkib mızıldandı.***

***Əziz Əzimli təkidlə xəbər aldı:***

***- Bəs onda niyə ağlayırsınız?***

***Çiçək sinə dolusu ah çəkdi. Köksü bərk-bərk körükləndi. Qırıq-qərəq yenə mızıldandı.***

***Əziz Əzimli müəllim sayğısını artırdı. Sakitləşdirici, toxtaq bir verici ahənglə ayrı suala keçdi:***

***- Bəlkə xətrinizə dəyən var?***

***- Yox! – Çiçək deyri-adi tərzdə silkələndi, - məən... mən... Demək***

***istədiyi söz boğazında ilişdi. Tez-tez udğundu.***

**(ardı gələn sayımızda)**